


# Sosial layihələrin icrası pandemiya dövründə də davam edir

## Prezidentin Balakən, Şəki və Qəbələ rayonlarına səfəri bunu bir daha təsdiqlədi

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 29-da Balakən, Şəki və Qəbələ rayonlarında səfərdə olub.

Balakən rayonuna səfəri çərçivəsində Prezident İlham Əliyev şəhərin mərkəzində Ümummilli Lider Heydər Əliyevin adını daşıyan mədəniyyət və istirahət parkında Ulu Öndərin abidəsini ziyarət edib, Balakən Şəhər Uşaq İncəsənət Məktəbinin yeni binasının, eləcə də Balakən regional "ASAN xidmət" Mərkəzinin açılışında iştirak edib. Mərkəzlə tanışlıqdan sonra Prezident İlham Əliyev ASAN könüllüləri ilə görüşüb. Dövlət başçısı görüşdə çıxış edib. Səfər çərşivəsində "Azərişıq" Açıq Səhmdar Cəmiyyətinin (ASC) Balakən Avtomatik İdarəetmə və Nəzarət Mərkəzi istifadəyə verilib.

Dövlət başçısı yenidən qurulan Balakən-Qazbinə-İtitala avtomobil yolunun açılışında da iştirak edib. Həmin tədbir çərçivəsində Balakən-Hənifə-Gülüzanbinə avtomobil yolunun təqdimatı da olub. Həmin gün Prezident Balakən rayonunda "Bal meyvə" Bağçılıq Təsərrüfatı ilə tanış olub.

Şəkiyə səfəri çərçivəsində Prezident İlham Əliyev xalqımızın Ümummilli Lideri Heydər Əliyevin Şəki şəhərinin mərkəzində ucaldılmış abidəsini ziyarət edib, önünə gül dəstəsi qoyub, Şəki rayonunun Qoxmuq-Baltalı-Babaratma-Qaradağlı-Qudula-Daşüz avtomobil yolunun yenidənqurmadan sonra açılışında iştirak edib, eləcə də Şəkidə koronaviruslu xəstələrin müalicəsi üçün nəzərdə tutulan modul tipli xəstəxanada yaradılan şəraitlə tanış olub.

Daha sonra Qəbələ rayonuna səfər edən Prezident İlham Əliyev Ümummilli Lider Heydər Əliyevin rayon mərkəzində ucaldılmış abidəsini ziyarət edib, koronavirus pandemiyasının qarşısının alınması məqsədilə ölkəmizdə həyata keçirilən qabaqlayıcı tədbirlər çərçivəsində Qəbələdə inşa edilmiş modul tipli xəstəxana kompleksində yaradılan şəraitlə tanış olub və Qəbələ rayonunda Əmirvan-Vəndam avtomobil yolunu yenidənqurmadan sonra istifadəyə verib.

**Bax: səh. 2**